**Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 14 may tarixli 2163 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin strukturu"nda dəyişikliklər edilməsi haqqında**

**Azərbaycan Respublikası Prezidentinin**

**SƏRƏNCAMI**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 14 may tarixli 2163 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 5, maddə 500; 2008, №11, maddə 970; 2009, №12, maddə 1053; 2011, №7, maddə 699; Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 18 aprel tarixli 2176 nömrəli Sərəncamı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin strukturu"nun 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. Beşinci - onuncu bəndlər müvafiq olaraq səkkizinci - on üçüncü bəndlər hesab edilsin, aşağıdakı məzmunda beşinci, altıncı və yeddinci bəndlər əlavə edilsin:

"Təşkilat-nəzarət baş idarəsi

Vətəndaşlıq məsələləri idarəsi

İctimaiyyətlə əlaqələr idarəsi".

2. Səkkizinci bənddən "və vətəndaşlıq məsələləri" sözləri çıxarılsın.

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 18 iyun 2012-ci il.**

*"Azərbaycan" qəzetinin 19 iyun 2012-ci il tarixli 133 (6114) nömrəli sayında dərc edilmişdir.*